# 01 Dünyanın Yaradılması

## Yaradılış 1

[1] Başlanğıcda Tanrı göyləri və yeri yaratdı. [2] Yer quruluşsuz və boş idi. Dərin sular üzərində qaranlıq
var idi. Tanrının Ruhu suların üzərində dolaşırdı. [3] Tanrı dedi: «Qoy işıq olsun». İşıq oldu. [4] Tanrı
gördü ki, işıq yaxşıdır. Sonra O, işığı qaranlıqdan ayırdı.
[5] Tanrı işığı «gündüz», qaranlığı isə «gecə» adlandırdı. Axşam oldu, səhər açıldı; bu, birinci gün
idi. [6] Sonra Tanrı dedi: «Qoy suların arasında bir qübbə olsun və suları birbirindən ayırsın». [7] Tanrı
qübbəni düzəltdi və qübbənin altındakı suları onun üstündəki sulardan ayırdı. Belə də oldu. [8] Tanrı
qübbəni «göy» adlandırdı. Axşam oldu, səhər açıldı; bu, ikinci gün idi. [9] Sonra Tanrı dedi: «Qoy
göyün altındakı sular bir yerə yığılsınki, quru görünsün». Belə də oldu. [10] Tanrı qurunu «yer», su
yığınlarını isə «dənizlər» adlandırdı. Tanrı gördü ki, bu, yaxşıdır. [11] Sonra Tanrı dedi: «Qoy yer üzü
bitkilər yetirsin: toxumlar bitirən ot-ələf və torpaqda hər növ bəhərli ağaclar yetişsin. Ağaclar
meyvə gətirsin və toxumları meyvələrinin içində olsun». Belə də oldu. [12] Yer üzü bitkilər yetirdi: hər
növ toxum bitirən ot-ələf və hər növ ağac yetişdi. Ağaclar meyvə gətirirdi və toxumları
meyvələrinin içində idi. Tanrı gördü ki, bu, yaxşıdır. [13] Axşam oldu, səhər açıldı; bu, üçüncü gün
idi. [14] Sonra Tanrı dedi: «Qoy göy qübbəsində gecəni gündüzdən ayıran çıraqlar olsun. Onlar
işarələri, fəsilləri və günlərlə illəri göstərsin. [15] Qoy onlar göy qübbəsində çıraq olub, yer üzünə işıq
saçsın». Belə də oldu. [16] Tanrı iki böyük çıraq düzəltdi: gündüzü idarə etmək üçün böyük çıraq,
gecəni idarə etmək üçün kiçik çıraq. O həmçinin ulduzları düzəltdi. [17] Tanrı onları göy qübbəsinə
qoydu ki, yer üzünə işıq saçsın, [18] gündüzü və gecəni idarə etsin, işığı qaranlıqdan ayırsın. Tanrı
gördü ki, bu, yaxşıdır. [19] Axşam oldu, səhər açıldı; bu, dördüncü gün idi. [20] Sonra Tanrı dedi: «Qoy
sular çoxlu canlı məxluqlarla qaynaşsın, yer üstündəki göy qübbəsində quşlar uçsun».
[21] Tanrı nəhəng su əjdahalarını və suda qaynaşan hər növ bütün sürünən canlı məxluqları, həmçinin
hər növ bütün qanadlı quşları yaratdı. Tanrı gördü ki, bu, yaxşıdır. [22] Tanrı onlara bərəkət verərək
dedi: «Törəyib çoxalın və dənizlərdəki suları doldurun, quşlar da yer üzündə çoxalsın». [23] Axşam
oldu, səhər açıldı; bu, beşinci gün idi. [24] Sonra Tanrı dedi: «Qoy yer üzü hər növ canlı məxluqlar –
hər növ ev heyvanları, sürünən canlılar və çöl heyvanları əmələ gətirsin». Belə də oldu. [25] Tanrı hər
növ çöl heyvanlarını, hər növ ev heyvanlarını və yerdə sürünən bütün canlıları yaratdı. Tanrı gördü
ki, bu, yaxşıdır. [26] Sonra Tanrı dedi: «Öz surətimizə və bənzərimizə görə insanı yaradaq. Qoy o,
dənizdəki
heyvanlara, göydəki quşlara, yerdəki heyvanlara, bütün yer üzünə və yerdə sürünən canlıların
hamısına hökmranlıq etsin». [27] Tanrı insanı Öz surətində yaratdı, Tanrının surətində yaratdı, onları
kişi və qadın olaraq yaratdı. [28] Tanrı onlara xeyir-dua verərək dedi: «Törəyib çoxalın və yer üzünü
bürüyüb ona sahib olun: dənizdəki heyvanlar, göydəki quşlar, yerdə sürünən bütün canlılar üzərində
hökmranlıq edin». [29] Tanrı dedi: «Budur, yer üzündə toxum verən bütün ot-ələfi və meyvələrində
toxumu olan bütün ağacların bəhrələrini sizə verirəm ki, qidalanasınız. [30] Yerdəki heyvanların,
göydəki quşların və yerdə sürünən canlıların hamısına – nəfəsi olan bütün canlılara isə yem olmaq
üçün bütün yaşıl otları verirəm». Belə də oldu. [31] Tanrı gördü ki, yaratdığı hər şey çox yaxşıdır.
Axşam oldu, səhər açıldı; bu, altıncı gün idi.

## Sorular:

- Tanrı haqqında nə öyrənirik?
- İnsan haqqında nə öyrənirik?